# AZƏRBAYCAN RESPUBLİKASININ

# AUDİTORLAR PALATASI ŞURASININ

# QƏRARI

Bakı şəhəri № 232/2 5 iyun 2012-ci il

Auditorlar Palatasının 2011-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair hesabatı və auditin aparılması barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Auditorlar Palatasının 2011-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması və auditin aparılması barədə" 9.6-cı və 10-cu müvafiq bəndlərinə uyğun olaraq Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış hesabat və Palatanın 2011-ci ilin auditinin aparılması haqqında "HLB Azərbaycan" MMC-nin direktoru auditor İ.Bayramovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "Auditorlar Palatasının 2011-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair" hesabat nəzərə alınsın (əlavə olunur).

2. "HLB Azərbaycan" MMC-nin direktoru auditor İ.Bayramovun Palatanın auditinin aparılması haqqında rəyi nəzərə alınsın (əlavə olunur).

3. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın muhasibat uçot sisteminin Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğunlaşdırılması təmin edilsin.

4. Aparatın rəhbəri Q.Bayramova, Maliyyə və təsərrüfat idarəsinini rəisi V.Rəhimova tapşırılsın ki, həmin hesabatın və rəyin Palatanın internet saytında yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**